# Naxçıvanda yubiley təntənələri





***Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illik yubileyi Naxçıvan Muxtar Respublikasında da təntənə ilə qeyd edilir. Bu münasibətlə YAP-ın Naxçıvan şəhər, Şərur, Babək və Ordubad rayon təşkilatlarında toplantılar keçirilib.***

Tədbirlərdə əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman oğullarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Naxçıvan şəhər təşkilatının yubiley tədbirində təşkilatının sədri Elman Cəfərli, Şərur rayonunda YAP rayon təşkilatının sədri Əmir Babayev, Babək rayonunda YAP rayon təşkilatının sədri İsa Məmmədov, Ordubad rayonunda YAP rayon təşkilatının sədri Ehtibar İsmayılov çıxış edərək bildiriblər ki, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının təsis edilməsi müstəqilliyimizin xilas edilib möhkəmlədirilməsi tarixinin ən önəmli hadisələrindən biridir. Yeni Azərbaycan Partiyasının cəmiyyətdə daha da güclü siyasi təşkilata çevrilməsində son 20 ildə ulu öndərin ən layiqli davamçısı, onun siyasi xəttini uğurla davam etdirən Prezident, partiyanın Sədri İlham Əliyevin liderlik amili mühüm rol oynayır.

Natiqlər Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə partiya üzvlərini təbrik edərək, onlara qarşıdakı fəaliyyətlərində uğurlar arzulayıblar.

Yubiley mərasimlərində bir qrup veteran partiya üzvünə qiymətli hədiyyələr təqdim edilib.

Tədbirlər rəngarəng konsert proqramı ilə davam edib.

**Səbuhi HƏSƏNOV**

Xalq qəzeti .- 2022.- 13 noyabr.- S.9.